"İranda hərarətlə qarşılandıq"

Lənkəran Teatrının "İlan Sultan" tamaşası Beynəlxalq Fəcr Teatr Festivalında "Ən yaxşı tamaşa" adına layiq görülüb

Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrının truppası İran İslam Respublikasına səfərdən dönüb. Teatrın direktoru Tofiq Heydərov səfər barədə təəssüratlarını "Kaspi" ilə bölüşdü. O, deyir ki, teatrın yaradıcı kollektivi qonşu ölkədə keçirilən 34-cü ənənəvi Beynəlxalq Fəcr Teatr Festivalında Azərbaycanı təmsil edib. Dünyanın 30-dan çox ölkəsindən teatrların iştirak etdiyi festivala sənətçilərimiz İran dramaturqu Bəhram Beyzayinin "İlan Sultan" tamaşası ilə qatılıb.

İranlı rejissor Xeyrullah Təğiyənipurun quruluş verdiyi tamaşa Təbriz və Məşhəd şəhərlərində nümayiş etdirilib. T.Heydərovun sözlərinə görə, hər iki şəhərdə Lənkəran teatrı aktyorlarının ifası yüksək dəyərləndirilib: "Tamaşaya sadə iranlılarla yanaşı, ölkənin rəsmi nümayəndələri, dövlət xadimləri, tanınmış sənətçiləri baxaraq məmnun qaldıqlarını bildirdilər. Tamaşa barədə Xorasan televiziyasında və ayrı-ayrı qəzetlərdə məlumatlar verildi".

- Tofiq müəllim, necə oldu ki, İran teatrı ilə belə bir əməkdaşlığınız yarandı?

- Bakıda noyabr ayında keçirilən 3-cü Beynəlxalq Teatr konfransında dünyanın 120-yə yaxın ölkəsindən nümayəndələr - teatr biliciləri, teatrşünaslar, dünyanın tanınmış teatr xadimləri iştirak edirdi. Biz də o konfransda iştirak edirdik. Həmin festivalda İran İslam Respublikasının nümayəndə heyəti ilə görüşümüz oldu. Onlarla birlikdə teatral müzakirələr apardıq. Belə qərara gəldik ki, Azərbaycanla İran arasında mədəni işbirliyimizi həyata keçirək. Həm İran teatrı, həm də Lənkəran teatrı tərəfindən bir sıra təkliflər hazırlandı. Nəticədə belə qərara gəldik ki, İran İslam Respublikasından bir rejissor dəvət edək. Eyni zamanda, həmin rejissor İran müəllifinin əsərinə bizim teatrda quruluş versin. Qarşı tərəf bu təkliflə razılaşdı. Qərara aldıq ki, Bəhram Beyzayinin "İlan Sultan" əsərini səhnələşdirək. Tamaşanın rejissoru Xeyrullah Təğiyənipur İranda çox tanınan bir rejissordur.

Beləliklə, 2015-ci ilin oktyabr ayında layihəyə start verdik və tamaşanın məşqlərinə başladıq. Teatrın kollektivi bu layihəyə çox maraqla yanaşdı. Tamaşa Lənkəran tamaşaçıları tərəfindən də yaxşı qəbul olundu. Bizim layihəmiz Azərbaycan teatr cameəsində böyük ajiotaj yaratdı. Yanvarın 15-də biz İran İslam Respublikasına yola düşdük. Bizi sərhəddə İran İslam Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələri qarşıladılar. İlk tamaşamız yanvarın 16-da Təbriz şəhərində nəzərdə tutulmuşdu. Təbriz şəhərinin teatr cameəsi, eyni zamanda İran tamaşaçıları bizi çox yüksək səviyyədə qarşıladılar. Tamaşamızı izlədikdən sonra öz müsbət fikirlərini bizimlə bölüşdülər. İran Mədəniyyət Nazirliyinin işçiləri, dövlət xadimləri tamaşamız haqqında xoş sözlər dedilər. Bu bizi daha da ruhlandırdı. Təbriz şəhər mədəniyyət və turizm idarəsinin rəisi bizim tamaşanı izlədi və tamaşadan sonra teatrımızın kollektivi ilə görüşdü. O, Təbrizlə Azərbaycan arasında mədəniyyətlərarası mübadilənin davamlı olması barədə öz fikirlərini də bildirdi. Gələcək işlərimizdə də bu tip layihələrdə yaxından iştirak etməyi düşünürük.

- Bəs, hansısa mükafata layiq görüldünüzmü?

- Yanvarın 16-dan sonra İranın böyük şəhərlərindən olan Məşhəd şəhərinə yola düşdük. Orada bizi böyük qonaqpərvərliklə qarşıladılar. Yanvarın 19-da Məşhəddə sözügedən tamaşamızı nümayiş etdirdik. Orada da bizim tamaşanı çox gözəl qarşıladılar və alqışları ilə tamaşaya olan münasibətlərini bildirdilər. Tamaşamızı yüksək zümrənin nümayəndələri, dövlət və mədəniyyət işçiləri izlədilər. Qeyd edim ki, İranda bir sıra mətbuat nümayəndələri və televiziyalar bizim tamaşadan bəhs etdilər, onun uğurunu tamaşaçılarla bölüşdülər. Tamaşa ilə əlaqədar İranın bir sıra tanınmış qəzet və saytlarında və eləcə də televiziya kanallarında çıxışlarımız oldu.

Tamaşadan sonra Azərbaycan kollektivinin şərəfinə böyük bir ziyafət təşkil edildi. Ziyafətdə Azərbaycanla İran İslam Respublikası arasında qurulan ikitərəfli əməkdaşlığa önəm verildi. Qeyd edildi ki, gələcəkdə bu layihələrin daha da inkişaf etdirilməsi vacibdir. İranla Azərbaycan arasında həm texniki, həm də yaradıcı mübadilələrin edilməsi barədə müzakirələr aparıldı. Festivalın bağlanış mərasimində Lənkəran Dövlət Dram Teatrına təşkilat komitəsi tərəfindən diplom və xatirə hədiyyəsi təqdim edildi. Sonda isə bizim tamaşamız festivalın "Ən yaxşı tamaşası" adına layiq görüldü. Tamaşamızın rejissoru da "Ən yaxşı rejissor" mükafatını qazandı.

- Festivalın keçirilməsində əsas məqsəd nə idi?

- Tamaşanın hazırlanmasında əsas məqsəd o idi ki, hər il yanvar ayında İranda keçirilən beynəlxalq "Fəcr" festivalında iştirak edək. Festivalın yanvar ayında keçirilməsinin də əsas səbəbi odur ki, İran inqilabı məhz bu aya təsadüf edir.

- İran mentaliteti bu tamaşanı nümayiş etdirməkdə sizə hər hansı bir çətinlik yaşatdımı?

- Dövlətin adından da aydın olduğu kimi, İran İslam dövlətidir. İranda teatrlarda bəzi qadağalar mövcuddur. Belə ki, kişi qadına toxuna bilməz. Qadınların başları bağlı olmalıdır. Bütün bu qadağalara baxmayaraq, bizim üçün heç bir problem olmadı. Tamaşada müəyyən məhəbbət səhnələri olsa da, biz tamaşanı onların qanunları əsasında hazırladıq. Bütün bu qadağalara baxmayaraq, tamaşa çox maraqlı və baxımlı alınmışdı. Biz tamaşanı Azərbaycan dilində oynayırdıq. İranda tamaşamız nümayiş olunmamışdan öncə rejissorumuz səhnəyə çıxıb tamaşaçılara onun süjet xətti, səhnə həlli barədə məlumatlar verdi. Tamaşanın ümumi strukturunu anlayan insanlar tamaşanı qəbul etdilər. Tamaşanın musiqisindən tutmuş, rəssamlığına qədər hər bir şeyin Məşhəd teatr cameəsinin zövqünə uyğun olduğu bildirildi.

- Bəs, festivalda əcnəbilərə Lənkəran Teatrı və onun repertuarı haqqında hər hansı bir informasiya verildimi?

- Biz həm Təbrizdə, həm də Məşhəddə teatr rəhbərləri ilə müəyyən müzakirələr apardıq. Biz istəyirik ki, ya Məşhəd, ya da Təbriz teatr nümayəndələrini Lənkərana dəvət edək, tamaşalarımıza baxış təşkil edək. Eləcə də bizim rejissorlar gedib Təbrizdə və digər teatrlarda tamaşalar hazırlasınlar. Təbriz Teatrından bizə bir sıra təkliflər gəldi. Məşhəddə bizə qarşılıqlı tamaşa hazırlamağı təklif etdilər. İranın Gilan vilayətinin Mədəniyyət İdarəsindən bizimlə əlaqə saxladılar. Onlar istəyirdilər ki, Novruz bayramına kimi biz orada "İlan Sultan" tamaşasını göstərək. Həftənin cümə günü mən oraya gedəcəyəm. Orada qastrol səfərlərini müzakirə edəcəyik. İstəyirik ki, Azərbaycan teatrını ölkədən kənarda yüksək səviyyədə təmsil edək.

- Hazırda Lənkəran teatrında hansı tamaşa üzərində məşqlər gedir?

- Hal-hazırda Əli Əmirlinin "Köhnə ev" tamaşası üzərində məşqlər gedir. Bundan başqa, Mirzə Fətəli Axundovun "Hacı Qara" tamaşası üzərində işləmək istəyirik. Bunun üçün tanınmış rejissor Gümrah Öməri dəvət etmişik. Lənkəran Teatrı olaraq çox istəyirik ki, paytaxtdan, dünyanın müxtəlif ölkələrindən rejissorlar dəvət edək. Düzdür, bu, böyük maddiyyat tələb edir, ancaq buna baxmayaraq, əlimizdə olan imkanlarla buna cəhd edirik. Lənkəran teatrının yaradıcı potensialını qaldırmaq, onu daha da inkişaf etdirmək üçün kənardan rejissorlar dəvət edirik ki, bizim aktyorlarımız üçün də dəyişiklik olsun. Teatrımızın çox istedadlı yaradıcı kollektivi var. Onlar da bu işdə əllərindən gələni edirlər.

- Hazırda gündəmin əsas mədəniyyət mövzusu "Yuğ" Teatrının binasının sökülməsi xəbəridir. Sizin məsələyə münasibətinizi də öyrənmək istəyərdik.

- "Yuğ" Teatrının sökülməsi ilə bağlı mətbuatda bir çox fikirlər səslənir. Kimisi teatrın sökülməsinin tərəfdarı, kimisi isə əleyhdarıdır. Nəzərə almaq lazımdır ki, teatrlarımız dövlətin himayəsi altındadır. Bundan böyük ajiotaj yaradıb "Dövlətimiz "Yuğ" Teatrını dağıdır" kimi fikirlər səsləndirmək düzgün deyil. "Yuğ" Teatrı dövlətin teatrıdır. Hətta bölgə teatrları da dövlətə məxsusdur. Mədəniyyət və Turizm Nazirliyi öz teatrına sahib çıxır. İnanıram ki, nazirlik də bu sahədə müəyyən tədbirlər görəcək. Ümumiyyətlə, "Yuğ" Teatrı özünün orijinallığı ilə digər teatrlardan fərqlənən bir teatrdır. Rəhbərlik yəqin ki, bütün bunları bizdən yaxşı bilir. Həm də teatrın yerləşdiyi bina tarixi məkandır. Mədəniyyət və Turizm Nazirliyinin bütün bunları nəzərə alacağına əminəm.

Xəyalə Rəis

Aftandil İsrafilov "Şöhrət" ordeni ilə təltif edilib

Prezident İlham Əliyev Aftandil Eynulla oğlu İsrafilovun "Şöhrət" ordeni ilə təltif edilməsi barədə sərəncam imzalayıb.

Sərəncamda Aftandil İsrafilovun Azərbaycanda musiqi ifaçılığı sənətinin inkişafında xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edildiyi bildirilib.

"Eurovision-2016" mahnı müsabiqəsinin püşkatma mərasimi keçirilib

İsveçdə "Eurovision-2016" mahnı yarışmasının püşkatma mərasimi keçirilib.

APA-nın yarışmanın rəsmi saytına istinadən verdiyi məlumata görə, "Eurovision-2016" mahnı yarışmasının ev sahibi Stokholm şəhəri olub.

Yarımfinalda iştirak edəcək ölkələrin adları da məlum olub. Azərbaycan, Ermənistan və Rusiya birinci yarımfinalda iştirak edəcək. İkinci yarımfinalda isə Gürcüstan, Belarus, Polşa və digər ölkələr çıxış edəcək.